# Böyük Vətən müharibəsində sovet xalqının qələbəsinin 30 illiyinə Mayıl Alıcanov

# Sovet
# İttifaqı Qəhrəmanı
# Gəray Əsədov

**Gənclik, Bakı**
**1975**

***

Yəqin bir çoxlarının Şahsevən kəndi və onun adamları haqqında eşitmisiniz.

Gəray Lətif oğlu Əsədov 1923-cü ildə bu kənddə anadan olmuşdur. Lətif kişi bu şad xəbəri yaylaqda eşitmiş, illərdən bəri köksündə gəzdirdiyi arzunun yerinə yetirdiyini görüb, ürəkdən sevinmişdi.

Şahsevənin geniş çölləri, təpələri, Əsgər arxının, Araz çayının qırağı kənd uşaqlarının oylağı idi. Gərayın da uşaqlıq illəri buralarda keçmişdi. O, bir dəstə yaşıdları ilə quzu otarar,çayda çimər və maraqlı oyunlardan yorulmazdı. Hələ uşaqlıqdan öz çevikliyi ilə yaşıdlarından seçilən Gəray çox vaxt oyunların qalibi olardı. O, məktəbin nümunəvi şa girdlərindən idi. İctimai illərdə fəal iştirak etdiyinə görə müəllimləri Gəraya qəzet və jurnalları oxutdururdu. O oxuduqlarını uşaqlar üçün də izah edirdi.

Bir gün kənddə hamı Gəray və onun yoldaşlarından danışırdı. Yeddinci sinfi bitirən Gəray Lenin adına kolxozun zəmilərində işləyəndə "Təpəyanı"da alışan taxılı dostları ilə söndürmüşdü. Taxılçılar onların boynunu qucaqlayıb üzlərindən öpmüşdülər.

Gəray üzv olduğu Lenin komsomolunun adını doğrultduğuna sevinmişdi.

***

Müharibənin ilk günlərində gənclərin əksəriyyəti cəbhəyə yola düşdü. Dəflərlə rayon hərbi komissarlığına və komsomol komitəsinə məktub yazıb orduya könüllü getəsini xahikş etsə də Gərayı hələ aparmırdılar. O, səhərdən-axşama kimi kolxozun tarlalarında işləyirdi.

Uşaqlıq və cəbhə dostu Çoban Qarayev öz xatirələrindən yazır: "Müharibə başlananda bizim on səkkiz yaşımız da tamam olmamışdı. Ancaq xalqa, Vətənə necə kömək edəcəyimizi yaxşı başa düşürdük. Bircə gün də olsun tarladan ayağımızı çəkmirdik, gecə-gündüz işləyirdik".

1941-ci ilin noyabrında Jdanov rayon hərbi komissarlığı Gərayın və onun yoldaşlarının könüllü olaraq Qızıl Ordu sıralarına getmələrinə icazə verdi.

Şahsevən camaatı stansiyaya toplaşmışdı. Məktəblilər də cəbhəyə gedən komsomolçuları yola salmağa gəlmişdilər. Gərayın atası Lətif əmi, anası Gülara xala da burada idilər. Onlar Gərayı bağrına basaraq: "-Get, bala, uğur olsun! Amma namusla, qeyrətlə vuruş, başımızı el içində aşağı eləmə!" – dedilər.

Stansiyada adam əlindən tərpənmək olmurdu. Birdən parovoz fit verdi. Orduya gedənlər görüşüb qatara mindilər. Parovoz ağır-ağır yerindən tərpəndi. Gəray vaqonun pəncərəsindən baxır, doğma yerlərlə, geniş tarlalarla, sakit-sakit axan Arazla vidalaşırdı. Cavanlar birbaş cəbhəyə gedəcəklərini, azğın düşməndən

tezliklə intiqam alacaqlarını düşünürdülər. Ancaq əvvəlcə onları Naxçıvan MSSR-na gətirdilər. Burada gənc əsgərlərə təkim keçilirdi.

Gəray bütün məşqlərdə həmişə fərqlənirdi. Onun hərbi təlim zamanı dəqiqliyi, deyilənləri vaxtında və düzgün yerinə yetirməsi komandanlığın diqqətini cəlb etmişdi. Buna görə də Gərayı Naxçıvanda qısamüddətli hərbi kursa göndərdilər. O, məktəbi müvəffəqiyyətlə bitirib, serjant rütbəsi aldı.

Doğma alayında avtomatçılatr rotasına bölmə komandiri təyin edilən Gəray xidmət etdiyi hissə ilə İrana göndərilir. 1942-ci ilin yayında isə düşmənə qarşı döyüşlərdə iştirak etmək üçün Qafqaz cəbhəsinə yola düşür. Bu zaman Qafqaz uğrunda şiddətli vuruşlar gedirdi...

Düşməni nəyin bahasına olursa-olsun, Qafqazı ələ keçirməyə çalışırdılar. Hitlerçilər düşünürdülər ki, yanacaq böhranından xilas olsun, digər tərəfdən isə Sovet Ordusuna və SSRİ-nin mərkəzi rayonlarını Şimali Qafqaz taxılından və Bakı neftindən məhrum etsin. Faşist komandanlığı bu məqsədlə “Edelveys” adlı xüsusi plan hazırlamış və bu planı həyata keçirməyi general-feldmarşal Litsin komandan olduğu “A” qrup ordularına tapşırmışdı.

1942-ci il iyulun 24-də “A” qrup orduları Qafqazın açarı sayılan Rostovu tutdular. Bir neçə gündən sonra Qafqaz üzərinə hücum başlandı. Canlı qüvvə və texniki cəhətdən üstün olan düşmən qısa müddətdə Donarxası, Salsk düzlərini, Krasnodar ölkəsini tutmağa müvəffəq oldu. Avqustun ortalarında Baş Qafqaz dağlarının ətəklərinə, bəzi yerlərdə isə Terekin sağ sahilinə çatdı.

Qafqazın müdafiəsində mərdliklə vuruşanlar arasında Gəray Əsədov da vardır. Onun döyüş yolu Mozdokdan başlanmışdı.

Düşmən döyüşə yeni-yeni qüvvələr çıxarırdı. Gərayın bölməsi əks-hücumlarda minlərlə sovet döyüşçüləri kimi rəşadətli vuruşurdu.

1942-ci ilin dekabr ayında rota komandiri Gərayı yanına çağırıb, onun bölməsinə “düşmənin canlı və texniki qüvvəsi haqqında ətraflı məlumat gətirməyi” tapşırdı. Gəray özü il yalnız bir nəfər döyüşçü götürüb, gecəninzi qaranlığında Terekin sahilində yerləşən düşmən səngərlərinin arxasına keçdi.

Çox çəkmədi ki, xeyli əziyyətdən sonr Gəray polka “dil” də gətirdi. Bu onun ilk uğurlu səfəri deyildi; dəfələrlə belə çətin t6apşırıqları yerinə yetirmişdi.

Bir neçə gündən sonra Gərayın xidmət etdiyi polk hücuma keçdi. Atışma səsləri, top atəşləri, bomba gurultusu yenidən eşidildi. Hər yanı qatı barıt tüstüsü bürümüşdü. İki qüvvə - ölümlə həyat üz-üzə dayanmışdı. Biri ana Vətəni düşməndən təmizləmək, yer üzünə sevinc və xoşbəxtlik gətirmək, o biri isə bəşəriyyəti ölüm düşərgəsinə çevirmək üçün vuruşurdu. Öz mövqeyini möhkəmlədən düşmən bir neçə gün idi ki, qoşunlarımızın hücumlarına mane olur, tutduğu mövqeyi əldən vermək istəmirdi. Bu həlledici döyüşdə düşmən mövqeləri sarsıdılmalı idi.

Yaş səngərlərdə müşahidə aparan Gərayı məntəqəyə çağırdılar. Gəray işəri girən kimi komandir stolun üstündəki xəritəyə əyilib dedi:

-Görürsənmi, Gəray bu Terek çayıdır. Burada düşmən səngərləri yerləşir. Bu axşam öz bölmənlə çayı keçib, düşmənlər arasında çaxnaşma salmalısan. Faşistlərə arxadan qəfil zərbə vura bilsən, onlar mütləq özlərini itirəcək və mövqelərini əldən verməli olacaqlar. Bu mühüm və çətin tapşırıqdır. Sənə isə inanırıq.

-Aydındır, yoldaş komandir! Əmriniz yerinə yetiriləcəkdir! – dryə serjant G.Əsədov hərbi qaydada cavab verdi.

Gəray öz bölməsinin əsgərləri ilə Terek çayını keçib, düşmən arxasında döyüş mövqeyi tutdu. Gözlənilən vaxt gəlib çatmışdı. Saatın əqrəbləri bir-biri ilə görüşəndə atışma səsinə güclü "ura" səsləri qarışdı. Təşvişə düşən hitlerçilər pərakəndə halda səngərləri tərk edib, geri çəkilməyə məcbur oldular. Bu döyüş haqqında cəbhə qəzetlərinin birində yazılmışdı: "Çox keçmədi ki, arxa tərəfdən açılan güllələr faşistləri təşvişə saldı. Onlar sovet döyüşçülərinin arxaya keçə biləcəyini heç güman etməzdilər. Düşmən çaşıb qalmışdı. Bu qarışıqlıqdan istifadə edən leytenant Şahbazovun döyüşçüləri öz tərəfdən hücuma keçdilər. Bİr neçə saatdan sonra düşmən geri çəkilməyə məcbur oldu..."

G.Əsədovun iştirak etdiyi belə döyüşlər çoxdur. O, həmişə öz ağlı və cəsarəti ilə qələbə qazanırdı.

Qafqaz uğrunda döyüşlər davam edirdi. Düşmən tutduğu mövqelərdən asanlıqla əl çəkmək fikrində deyildi. Əsgərlərimizin əsas məqsədi yaxınlıqdakı təpəni tutmaq idi. Bu təpənin alınmasının böyük strateji əhəmiyyəti vardı. Çünki, həmin təpədən düşmən qüvvələrini və yaşayış məntəqəsinin müşahidə etmək olurdu. Gəraygilin avtomatçılar rotasına təpədəki atəş nöqtəsini susdurmaq tapşırılmışdır. Əsas çətinlik Gərayın bölməsinin üzərinə düşürdü.

Cəsur komandir kəşfiyyatçıların köməkliyi ilə düşmən mövqeyi haqqında bəzi məlumatlar topladı. Gecə ikən təpəyə yaxınlaşıb, dan yeri sökülləndə faşistləri güclü atəşə tutdular. Get-gedə qızışan döyüşdə düşmənin ön mövqeləri ələ keçirildi. Gəray yoldaşlarına tərəf çevrilib, gur səslə əmr etdi: - Süngü döyüşünə hazır ol!

Yenilməz sovet döyüşçüləri süngüləri qabağa verərək, düşmən səngərlərinə atıldılar. Əlbəyaxa vuruşmada dəmir cingiltisi, dəhşətli çığırtı, iniltilər eşidilirdi. Düşmən süngü döyüşünə tab gətirməyib qaçdı. Bizimçilərsə irəliləyirdilər.

Bu döyüşlərin birində Gəray yaralandı. O, tezliklə doğma bölməsinə qayıdacağını, düşmənə qarşı vuruşacağını güman edirdi.

1943-cü il yanvarın 14-də valideynlərinə göndərdiyi məktublarda igid döyüşçü yazırdı: "Unudulmaz ana və ata! Vətənimizin üzərini bürüyən qara buludlar yavaş-yavaş çəkilir. Heyif ki, həlledici döyüşlərdə i.tirak edə bilmədim 1942-ci il dekabrın 26-da hücum zamanı yaralandım. Yaram yüngüldür. Faşist cəlladlarını öz qanlı yuvalarında darmadağın edəcəyimiz vaxta az qalıb".

Lakin Gərayın yaraları o düşündüyü qədər də yüngül deyildi. Dörd ay Tbilisidəki hərbi xəstəxanaların birində müalicə olundu.

Sağaldıqdan sonra baş həkim ona qısamüddətli məzuniyyət vermək istədi. – Çox zəifləmisiniz,sizə bir müddət dincəlmək lazımdır, - dedi. O qəti etiraz etdi.

-Doğrudur, kəndimizə getməyi arzulayıram. Şahsevəndən ötrü burnumun ucu göynəyir. Lakin indi müharibədir. Vətənimizin müqəddəratı həll olunur. Belə vaxtda dincələ bilmərəm!

Hərbi xəstəxananın baş həkimi xeyli susdu. O, ucaboylu, pəhləvan cüssəli, qarayanız serjantın ürək ağrısı ilə dediyi sözlərə etinadsız qala bilmədi. Cəbhəyə getməsinə icazə verdi.

Gərayın doğma hissəyə qayıtması əsil bayrama çevrildi. Bölmənin döyüşçüləri onu dövrəyə aldılar. Bir-bir qucaqlayıb görüşdülər. Əsgərlərin bir neçəsi görsənmirdi. Gəray bir anlığa şahidi olduğu fəlakətləri xəyalına gətirdi. Həlak olan cavanların surəti gözünün qabağında canlandı. Dünyanın nakam getmiş bu cavanlar onu mübarizəyə səsləyirdi.

O yenə silah götürdü, yenə döyüşə girdi. Bu dəfə Gərayın səsi 2-ci Ukrayna cəbhəsindən gəlirdi. Xidmət etdiyi 93-cü Qırmızı Bayraqlı, Suvorov ordenli Xarkov qvardiya diviziyası Ukraynanın Novo-Svetlopol rayonunda döyüş mövqeyi tutmuşdu. Döyüşçülər bilirdilər ki, Znamenko qəsəbəsinin azad edilməsində onlar da iştirak edəcəklər. Buna görə də, hər bir döyüşçü qarşıdakı vuruşmaya hazırlaşırdı. Artilleriya atəşindən sonra əsgərlərimiz hücuma keçməli idilər.

Səhər tezdən topların güclü atəşi hər tərəfi titrətdi. Döyüşçülərin bütün qoşun növlərinin qarşılıqlı əlaqəsi şəraitində hücuma keçdilər. Şaxta adamı qılınc kimi kəsirdi. Lakin qışın sərtliyi Gərayın bölməsinin iradəsini sarsıda bilmədi. Bölmə kəndin yaxınlığındakı təpəni atəşə tutdu. Əsgərlər səngərdən-səngərə keçərək, təpəyə yaxınlaşırdı. Sağ və sol cinahlar gözləyir, başqa hisələrimiz irəliləyirdi. Birdən faşist təyyarələri havadan od ələməyə başladı, tanklar topların müşayiəti ilə qəflətən hücuma keçdi. Sağ və sol cinahdakı hissələrimizin top və tankvuran silahlarla güclü atəş açdılar. Sərrast atəşlər faşist tanklarının əvvəlcə birini, sonra isə ikincisini, üçüncüsünü sıradan çıxartdı. Elə bu zaman Gərayın bölməsi şığıdı. Gəray cəbhə dostları ilə birlikdə bütün günü döyüşün öz sırasında oldu. Odlu-alovlu saniyələr bir-birini əvəz edirdi. Düşmənin müqaviməti artıq zəifləmişdi. Nəhayət, hitlerçilərin cəbhə xətti yarıldı. Təpəyə ilk çatanloardan biri də Gəray Əsədov idi.

Hücumu bir an da olsa zəiflətmək olmazdı. Əks təqdirdə düşmən güc yığıb, yenidən müqavimət göstərə bilərdi. Döyüşçülərimiz artıq Znamenko kəndini tutmuşdular. Vzvod komandirinin göstərişinə görə onların hərəsi küçənin bir tərəfi ilə gedir və evlərdə düşmən əsgərlərinin olub-olmamasını yoxlayırdılar. Qəflətən yaxındakı həyətlərdən birinin qapısı səsləndi. Gəray tez yerə yatdı. Vzvod komandiri də gizlənə bildi.

Bir nəfər fris sakitcə qapını açıb, diqqətlə ətrafına baxdı. Heç kəsi görməyib bir az da cəsarətləndi. Yenidən geri qayıdıb qapının yanında dayandı, həyətdəki yoldaşlarına nəsə dedi. Həyətdən bir dəstə faşist çıxdı. Görünür, tələsik geri çəkilən hissələrindən aralı düşmüddülər. Onlar tez-tez dayanır, hər tərəfə göz gəzdirir, öz aralarında xısın-xısın danışırdılar.

Yəqin ki, hansı tərəfə gedəcəklərini aydınlaşdırmağa çalışırdılar.

Vzvod komandiri və Gəray artıq özləri üçün əlverişli atəş mövqeyi tutmuşdular. Vaxtı itirmək olmazdı. Düşmən aradan çıxa bilərdi. Bu zaman leytenant Boqomazın qətiyyətli səsi eşidildi:

-Əllər yuxarı!

Əks istiqamətdən Gəray cingiltili səslə əmr etdi:

-Təslim olun, alçaqlar!

Düşmən əsgərləri mühasirəyə düşdüklərini yəqin edib silahlarını yerə atdılar.

Qəsəbə faşistlərdən təmizləndi.

Vzvod komandiri hərbi əsirləri qərargaha aparmağı Gəraya tapmışdı.

Polk komandiri döyüşdən sonra bateriyaları gəzirdi. Birdən Gərayın bir dəstə əsir gətirdiyini gördü. Gəray polk komandiri podpolkovnik Kondraxovun iki addımlığında dayanıb:

-Yoldaş podpolkovnik...

-Lazım deyil, Əsədov! Sənə vuruşmada göstərdiyin rəşadətə və qəhrəmanlığa görə təşəkkür elan edirəm!

Xarkov, Poltava şəhəri uğrunda gedən döyüşlər də Gəray və onun dostlarına yeni şöhrət qazandırdı. 93-cü Qırmızı Bayraqlı, Suvorov ordenli qvardiya diviziyası Xarkovun azad edilməsində fərqləndiyinə görə ona “Xarkov” diviziyası adı verildi və Vətənimizin paytaxtı Moskvada onun şərəfinə yaylım atəşi atıldı. Bu qələbədə Gərayın da payı vardı.

Poltava uğrunda gedən şiddətli vuruşmada G.Əsədov yenidən yaralandı. Lakin o, cəbhəni tərk etmədi.

Qısamüddətli müalicədən sonra yenidən cəbhəyə qayıdan Gəray Əsədov, Moldaviya və Ruminiyanın azad edilməsində iştirak etdi.

Gəray düşmən üzərində qələbimizə bütün qəlbiylə inanırdı. Gənc əsgərin otuz il bundan əvvəl yazılmış üçkünc məktublarının birində fədakar bir ürəyin çırpıntılarını eşidirik; Gəray sevdiyi qıza yazmışdı: “Əzizim! Kənddən cəbhəyə yola düşdüyüm günü gözlərinə baxdım. Baxışların mənə çox şey danışdı. Məhəbbətin mənə qüvvət verdi. Sənin üçün, Vətənim üçün vuruşuram. Arxayın ol! Tezliklə azğın düşmənlərə qələbə çalacağıq. Bu qələbəyə mən öz məhəbbətim kimi inanıram!”

Rumıniya torpağı uğrunda gedən döyüşlərdə göstərdiyi rəşadət G.ƏSədovu 93-cü Qırmızı Bayraqlı, Suvorov ordenli Xarkov qvardiya diviziyasında hamıya tanıtdı. 1944-cü ilin avqustund Sovet Rumıniyanın əsas neft rayonu olan Ployiştini hitlerçilərdən azad edib, Buxarestə doğru müvəffəqiyyətlə

irəliləyirdi. 93-cü diviziya cəbhə komandanlığının sərəncamı ilə Şimal-Qərbə dönüb, Transilvaniyanın çətin dağ keçidlərini aşdı. 1944-cü il oktyabrın 19-da Vlaka kəndinə yaxınlaşdı. Komandanlıq qəti hücumla kəndi tutmağı qərara aldı. Düşmən qızğın müqavimət göstərirdi. Ağır topların düşmən istehkamlarını aramsız atəşə tutması döyüşçülərimizin işini xeyli asanlaşdırmışdı. Gərayın dəstəsi hücumçuların öz sıprasında gedirdi.

Tezliklə kəndin darısqal küçələrində əlbəyaxa vuruşmalar başlandı. Gəray döyüşə atılaraq, düşmən mövqeyinə dalbadal bir neçə qumbara tulladı. Şəxsən 11 nəfər hitlerçilərin öldürddü. Bir neçə saatdan sonra Valxa kəndi faşistlərdən azad edildi.

Gəray Əsədov ən çətin vəziyyətdə çıxış yolu tapan, müxtəlif hərbi fəndlərdən məharətlə istifadə edən, bacarıqlı komandir idi. Xuedin şəhəri uğrunda gedən döyüşlər buna parlaq misaldır.

1944-cü il oktyabrın 12-də 93-cü diviziyanın hissələrinə Xuedin şəhərini düşməndən azad etmək əmri verildi. Düşmən şəhəri əldən vermək istəmirdi.Onun qüvvətli minomyot atəşi tank desantçılarımızın irəliləməsinə ciddi mane olurdu. Gəray Əsədov faşistlərin minomyot atəşini susdurmağı qərara aldı. O, sürünə-sürünə faşist minomyotları qrupuna yaxınlaşıb, onlarla təkbətək döyüşə girdi, sərrast avtomat atəşi ilə minomyotun heyətini məhv etdi. Sonra igid minomyotun arxasına keçərək, onu düşmənin mövqeyinə tərəf tuşladı. Bu vuruşmada cəsur qvardiyaçı 24 hitlerçini məhv etdi. Düşmənə qarşı vuruşmada qəhrəmanlıq göstərdiyinə və öz bölməsinə məharətlə rəhbərlik etdiyinə görə G.Əsədov Qırmızı Bayraq ordeni ilə təltif edildi.

Gəray Əsədovun Rumıniyadakı yolu qısa və şərəfli olmuşdu. Döyüşçülərimiz bir yaşayış məntəqəsini faşistlərdən azad etmək üçün hücuma keçmişdilər. Ancaq üstünlük düşmən tərəfdə idi. Onlar qvardiyaçıları mühasirəyə alıb, məhv etmək istəyirdilər. Gəray Əsədov: “Öldürülən uşaqlar və analar, tökülən göz yaşları və axıdılan qanlar üçün düşməndən intiqam alaq!” –deyə irəli atıldı. Bölmə onun ardınca hücuma keçərək, düşmənlə süngü döyüşünə girişdi. Qvardiyaçılar qəhrəmanlıqla vuruşub, süngü və qumbaralarda özlərinə yol açdılar. Şanlı Sovet əsgərləri burada da qələbə çaldılar. Qüvvələrin qeyri-bərabər olduğu bu vuruşmada Azərbaycan xalqının qəhrəman oğlu G.Əsədov yoldaşları ilə birlikdə düşmənin 16 nəfər əsgər və zabitini məhv etmiş və 22 nəfərini isə əsir almışdı.

Sovet Ordusu Rumıniya torpaqlarını faşistlərdən təmizləmək uğrunda qəhrəmancasına vuruşmuşdu. 93-cü Qırmızı Bayraqlı, Suvorov ordenli Xarkov qvardiya diviziyası da Karpat dağlarının ətəyində yerləşən Marqata şəhəri uğrunda qızğın döyüşlərə atılmışdı. Məhz bu döyüşdə Gəray öz adını əbədiləşdirən, ona həmişəlik qazandıran bir rəşadət göstərdi.

1944-cü il oktyabrın 19-u idi. Üç gün idi ki, Marqata şəhəri ətrafında döyüşlər ara vermirdi. Faşistlər cəbhənin kiçik bir sahəsində çoxlu qüvvə

toplamışdı. Düşmən pulemyotları müxtəlif istiqamətlərdə atəş açaraq, sovet döyüşçülərinin hökümünə mane olurdu. Yağışlı havalarda döyüş şəraitini xeyli çətinləşdirmişdi.

Gəray Əsədovun hissəsi bu dəfədə ön sırada vuruşurdu. Faşistlərin dəmiryol stansiyasının binasında qoyulan dəzgahlı pulemyotunun aramız atəşinə baxmayaraq qurbanlar bahasına olsa da, şəhəri hitlerçilərdən təmizləməli və burada öz mövqelərini möhkəmləndirməli idilər. Qələbəni təmin etməkdən ötrü birinci növbədə düşmən pulemyotunu susdurmaq lazım idi. Bu tapşırığı yerinə yetirməyə yollanan üç avtomatçı həlak oldu. Yoldaşlarının ölümö Gərayın düşmənə olan nifrətini daha da artırdı. O, tezliklə düşmən pulemyotunu özü məhv etməyi qərara aldı. Aramsız pulemyot atəşi altında Gəray düşmənin atəş nöqtəsinə tərəf sürünürdü. Ətrafında dqşmən mərmilər torpağın köksündə çalalar açırdı.

Özündən əvvəl düşmənin atəş nöqtəsinə yollanmış döyüş yoldaşlarının cəsədənə görən Gərayın düşmənlərə qarşı nifrəti birə-on artdı... Artıq pulemyotun ölüm yağdıran lüləsi aydın görünürdü. O, çətinlikdə sürünə-sürünə pulemyotun atəş açdığı zirzəmiyə yaxınlaşdı. Bir neçə əl qumbarısını pəncərədən içəri atdı. Zirzəmidə güclü partlayış qopdu. Pulemyot susmuşdu. Gəray sevincdən gülümsündü.Ayağa qalxıb, “ura” sədaları altında döyüşçüləri hücuma aparmaq istəyirdi ki, zirzəminin başqa bir pəncərəsindən açılan pulemyot atəşidəstələrini yerə yatmağa məcbur etdi.

Gərayın döyüş sursatı qurtamışdı, qabaqda isə mühüm tapşırığı yerinə yetirmək kimi vəzifə dururdu. Faşistlərin atəşini ardı-arası kəsilmirdi. Eyni zamanda başları üzərində fırlanan “Yükerlərin” səngərlərə tökdüyü bombaların qəlpəsindən döyüşçülərin sayı azalmışdı. İndi hər saniyə qiymətli idi. Gəray birdən itirdiyi qiymətli şeyi tapanlar kimi sevindi. Aleksandır Matrosovun göstərdiyi igidliyi xatıladı. Bir il bundan əvvəl yaralanarkən Matrosovun rəşadəti haqqında qəzetlərdə oxumuşdu. Onu mərd siması elə bil ki, düşmən gülləri arasında Gərayı qəhrəmanlığa səsləyirdi. Tək bircə çıxış yolu vardı: özünü, həyatını qurban verib, dostlarını xilas etmək və düşmən üzərində qələbə çalmaq! Gərayın xəyalından şimşək sürəti ilə keçən bu fikirlər onu qanadlandırdı. Qoynunda boy atıb böyüdüyü doğma Şahsevən, “məndən nigaran qalmayın” – deyə tez-tez məktub yazdığı atası Lətif kişi, anası Gülara, intizarla yolunu gözləyən sevgilisi, qardaş və bacıları son dəfə gözləri önündən keçdi. Qeyzi daha da artdı, yaralı pələng kimi irəli sıçradı. O, ayağa qalxıb irəli qaçır, üzü üstə yatıb sürünür, düşmənin atəş nöqtəsinə yaxınlaşırdı. Birdən “Vətən uğrunda!” – deyərək qartal kimi şığıyıb, öz köksünü pəncərədən görünən pulemyotun lüləsinə dayadı. Gərayın bədəninə sahki onlarca xəncər sancıldı. Alov püskürən düşmən pulemyotu susdu. Qvardiyaçılar rotası dərhal polad axın kimi irəli cumdu. Stansiya uğrunda qanlı döyüş başlandı. Döyüşçülərimiz qəti hücuma keçib, Marqata şəhərini hitlerçilərdən təmizlədilər.

Hissənin döyüşçüləri öz komandirlərini əsgəri qaydada Marqata şəhərinin yaxınlığındakı hündür bir təpənin üstündə dəfn etdilər. Döyüş yoldaşları düşməndən Gəray Əsədovun intiqamını alacaqlarına and içdilər.

Faşist işğalçılarına qarşı Rumıniyada gedən döyüşlərdə komandanlığın tapşırığını nümunəvi yerinə yetirdiyinə və böyük igidlik göstərdiyinə görə Gəray Lətif oğlu Əsədov SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il 24 mart tarixli Fərmanı ilə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

İllər keçsə də Gəray Əsədovun əziz xatirəsi Azərbaycan xalqının qəlbində həmişə yaşayacaq, onun döşünə vura bilmədiyi "Qızıl ulduz" şüurumuzda əbədi həkk olunub qalacaq.

Gəray Əsədovun igidliyi və onun ölüm xəbəri Vətənimizi qarış-qarış dolaşdı, doğma Şahsevənə Qırmızı Bayraqlı, Suvorov ordenli Xarkov qvardiya diviziyasının 291-ci qvardiya polku komandirindən Lətif kişiyə məktub gəldi. Gərayın kiçik qardaşı polk komandirinin məktubunu tasına oxuyurdu:

"Əziz valideynlər! Sizin oğlunuz, qvardiya serjantı Gəray Əsədov hərbi anda sadiq qalmış, sosialist Vətəni uğrunda döyüşlərdə qəhrəmanlıq və mərdlik göstərərək, 1944-cü il oktyabrın 19-da həlak olmuş və Norgivartarı qəzasındakı (Transilvaniya) Marqata şəhərinin cənub ucqarlarında dəfn edilmişdir".

Lətif kişi qulaqlarına inanmadı, "qara kağız" dəhşətli sətirlərini oğluna dönə-dönə oxutdu, gözlərinə qaranlıq köçdü. Alnındakı dərin qırışların üzərinə soyuq tər gəldi. Müharibə onun qəlbinə dağ çəkmişdi... Uşaq yaşlarında oğluna apardığı yaylaqlara çıxdı, adını öyrətdiyi çiçəklərə baxdı. Laki dərdini öyrətdiyi çiçəklərə baxdı. Lakin dərdini ovuda bilmədi. O, çaşıb qalmışdı. Hələ bu xəbəri ömür-gün yoldaşı Gülaraya necə deyəcəkdi? Necə deyəcəkdi ki, Gəray artıq yoxdur, uzaq Rumıniya torpağında həlak olub...

Ana qəlbi həssas olur. Ərinin baxışlarından kədəri sezdi. Özünü Lətif kişinin üstünə atıb, hönkür-hönkür ağlamağa başladı. Qara kəlağayısı bvaşından sürüşüb düşən Gülara heç nə görmürdü, heç nə eşitmirdi. Ana öz oğlunun ölümünə inana bilmirdi. Lakin artıq Gərayın ölümü bütün kəndə yayılmışdı.

Ata və ana bircə şeylə təsəlli tapdı: Gəray Vətən uğrunda qəhrəman kimiu vuruşdu, qəhrəman kimi də öldü. Gərayın adı mərdlik və rəşadət simvolu oldu, döyüş dostlarının, qədirbilən xalqımızın və müasirlərimizin qəlbində yaşadı, onları Vətən uğrunda hünərlərə rujlandırdı.

Gəray Əsədovun cəbhə dostlarından biri onun qəhrəmanlığına, döyüş rəşadətinə şer həsr etmişdi. Həmin şerdə oxuyuruq:

Əsədov xidmət edib
Bizim bayrağın altda,
Sadiq olub əsgəri
Andına ağır vaxtda.
Rus qardaş Matrosov tək.
Yada sinə gəribdir.

Döyüşdə onun kimi
İgidlik göstəribdir.
Kim ki, Vətən yolunda
Canını edir fəda,
Müzəffər xalqımız tək
Ölməz olur dünyada.
Bütün döyüşçülərin
Qəlbində sağdır hər an,
Bizim alayın oğlu
Əsədov – ölməz insan.

Gəray Əsədovun adı öz həmyerlilərinin – Şahsevən kolxozçularının, Azərbaycan zəmətkeşlərinin işlərində, əməllərində yaşayır. Respublikanın bir çox rayonlarında G.Əsədov adına kolxoz, küçə, məktəb vardır; bir neçə yerdə onun abidəsi qoyulmuşdur.

Yazıçı və şairlərimiz, ədiblərimiz onun haqqında yazır, qəhrəmanlığını, mətinliyini, idarəsini, yenilməzliyini tərənnüm edirlər.

Müharibənin qurtarmasından 30 il keçməsinə baxmayaraq, Gəray Əsədov bizim qəlbimizdə 21 yaşlı gənc kimi yaşayır.

***

İndi Şahsevən respublikamızda ən abad kəndlərdən biridir. Bir neçə mağaza, kino-teatr, klub kənd zəhmətkeşlərinin xidmətindədir. Gəray Əsədovun oxuduğu məktəbin qarşısında qəhrəmanın heykəli qoyulmuş, məktəbdə xatirə muzeyi açılmışdır. Muzeydə Gərayın cəbhə məktubları, şəxsi əşyaları, şəkilləri onun həyat və döyüş yolunu əks etdirən materiallar toplanmışdır.

Gəray Əsədov adına məktəb nəcib bir təşəbbüs irəli sürmüşdür, ictimaiyyətlə birlikdə cəsur döyüşçünün anadan olmasının 50 illiyini geniş qeyd etmişlər. Bir-birini əvəz edən natiqlər G.Əsədov haqqında xatirələrindən, qəhrəmanın döyüş yolundan danışmışlar.

Həmin gün Gərayın aqğsaçlı müəllimləri də öz sevimli şagirdləri haqqında ürək yanğısı ilə söhbət açdılar.

Gəray ölməmişdir! Onun igidliyi və adı əbədi məşəl kimi gələcək nəsillərin qəhrəmanlıq yollarına nur səpir, xalqımızın qəlbində daim yaşayır.

**Redaktoru:** Qaraş Mədətov.
**Nəşriyyat redaktoru:** Musa Ələkbərov.
**Rəssamı:** A.Kozlov.
**Bədii redaktoru:** S.Şatikov.
**Texniki redaktoru:** S.Həbibzadə.
**Korrektoru:** N.Ağakişiyev.

Yığılmağa verilmiş 12.III.1975-ci il. Çapa imzalanmış 26.III.1975-ci il. Kağız formatı 62x92 $^{1}/_{32}$, ofset kağızı. Fiziki ç/v. 1. Şərti ç/v. 1. Uçot nəşr. V. 0,7. FQ 01586. Sifariş № 284. Tirajı 15000.

Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsi.

"Gənclik" nəşriyyatı, Bakı, Hüsü Hacıyev küçəsi, 4.

26 Bakı komissarı adına mətbəə, Bakı, Əli Bayramov küçəsi, 3.

Алыджанов Маил Садяр оглы
Герой Соетского союза
Герой Асадов
(На азербайджанском языке)
Гянджлик · Баку ·1975